Respublika .- 2023.- 2 fevral.



# Bəşir Kərimov

*Azərbaycanın Milli Qəhrəmanı Bəşir Bəylər oğlu Kərimov 2 fevral 1976-cı ildə Füzuli rayonunun Qacar kəndində anadan olmuşdur. 1983-cü ildə burada orta məktəbə getmiş, 1991-ci ildə səkkizinci sinfi bitirərək texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. Erməni qəsbkarları bu illərdə Qarabağa geniş hücum planı həyata keçirir, Azərbaycanın əzəli torpaqlarını işğal edirdilər.*



Bəşir 1993-cü ildə artıq döyüş meydanlarında idi... O, burada patron daşıyır, əsgərlərə yemək çatdırılmasında iştirak edirdi. Həmin il Füzuli rayonu işğal edildikdən sonra onun ailəsi İmişli rayonunda məskunlaşır. 1994-cü il mayın 19-da Bəşir Milli Ordu sıralarına çağırılır.

1995-ci il... 13-17 mart hadisələri Vətənin ağır günləri idi. Silahlı dəstələrin zərərsizləşdirilməsində Bəşir Kərimov böyük şücaət göstərir. Bu ağrılı-acılı yolda xalqımızın bir çox ləyaqətli övladları ölkəmizin müstəqilliyi, onun yenidən itirilməməsi uğrunda öz canlarından keçdilər.

Belə ağır zamanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir.

Vətənə, el-obasına sədaqətli olan adamlar hər zaman olduğu kimi, 1995-ci ilin mart hadisələri zamanı da ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşdilər. Nəticədə, respublikamızın müstəqil dövlətçiliyinə qəsd etmək xülyasına düşənlərin arzuları gözlərində qaldı. Qəsdin qarşısı vaxtında və qətiyyətlə alındı.

1995-ci ilin martın 17-də ölkə vətəndaş müharibəsi təhlükəsini yaşadığı bir vaxtda, 19 yaşlı Bəşir də vətənpərvərlik borcunu yerinə yetirməkdən ötrü silahlı dəstəni zərərsizləşdirmək üçün döyüşə qatılır. O, Azərbaycan əsgərinə xas olan döyüş əzmkarlığı nümayiş etdirirdi. Təəssüf ki, bu qarşıdurma itkisiz ötüşmədi. Qarşı tərəfdən atılan atəş Bəşirin gənc ömrünə son qoydu.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli Fərmanı ilə Kərimov Bəşir Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Bəşirin canından keçdiyi, müstəqil və azad görmək istədiyi Azərbaycan bu yolda inamla addımlayır. Odur ki, ulu öndər Heydər Əliyevin bizə etibar etdiyi müstəqil Azərbaycan Respublikasında yaşamaq, yaratmaq, işləmək hər bir vətəndaşın hüququ olmaqla yanaşı, onun suverenliyini də göz bəbəyi kimi qorumaq şərəfli borcumuzdur. Dövlətlə xalqın birliyi isə müstəqilliyimizi əbədi, dönməz və sarsılmaz edəcəkdir.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**